# AZƏRBAYCAN TIBB ASSOSASIYASI (ATA)

*Azərbaycanın sağlam gələcəyi naminə birlikdə!*

# NİZAMNAMƏ

(Qısaldılmış versiya)

**15 Sentyabr, 1999-cu il, Bakı, Azərbaycan**

ATA-nın təsis konfransında qəbul edilmişdir.

**22 Dekabr 1999-cu ildə**

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır.

## I. Ümumi müddəalar.

- Azərbaycan Tibb Assosasiyası ( bundan sonra "Assosasiya"adlanacaq) könüllülük əsasında yaradılan tibb təmaüllü müstəqil ictimai birlikdir.
- Azərbaycan Tibb Assosasiyası qeyri-siyasi, qeyri-dini, qeyri-hökumət təşkilatıdır.
- Azərbaycan Tibb Assosasiyası öz fəaliyyətini Azərbaycan Respulikasının Konstitutsiyası, İctimai Birliklər və Fondlar haqqında qanun, beynəlxalq hüquq normaları və öz Nizamnaməsi əsasında qurur.
- Assosasiyanın adı:

  - Azərbaycanca: Azərbaycan Tibb Assosasiyası (ATA)
  - Rusca: Азербайджанская Медицинская Ассоциация (AMA)
  - İngiliscə: Azerbaijan Medical Association (AMA)

- Assosasiya hüquqi şəxs olub,müstəqil balansa, blanka, mətbuat orqanına,üzvlük vəsiqəsinə, bank hesabına, dairəvi möhür və ştampa, əmlaka,həmçinin digər rekvizitlərə malikdir.
- Assosasiya Dünya Tibb Assosasiyasına və digər beynəlxalq ictimai qurumlara üzv ola, birbaşa əlaqə saxlaya, qüvvədə olan qanunvericilikdə qadağan olunmayan saziş və müqavilələr imzalaya bilər.

## II. Assosasiyanın məqsəd və vəzifələri

- Assosasiyanın məqsəd və vəzifələri aşağıdakılardır:

- Üzvlərin və onların pasientlərinin ləyaqətini, hüquqlarını qorumaq;
- Üzvlərin müstəqilliyini və peşəkar maraqlarını qorumaq;
- Üzvlərin peşəkar hazırlıq səviyyəsinin yüksəldilməsinə köməklik göstərmək;
- Üzvlərin elmi və ictimai fəaliyyətlərini dəstəkləmək;
- Üzvlərin maraqlarını milli və beynəlxalq səviyyədə təmsil etmək;

Copyright 1999-2013. Azərbaycan Tibb Assosasiyası 

Copyright 1999-2013. Azarbaycan Tibb Assosasiyasi ATA Nizamnama

- Tibbi təhsil standartlarının təkmilləşməsində iştirak etmək;
- Davamlı tibbi təhsil proqramlarının hazırlanması və tətbiqinə köməklik göstərmək;
- Tibbi xidmət standartlarının təkmilləşməsinə köməklik göstərmək;
- Təbabətdə yüksək etik standartları və etik davranış qaydalarını inkişaf etdirmək;
- "Həkim Sağlamlığı" –nın qorunması istiqamətində programlar həyata keçirmək;
- Tibb İctimayətinin, həkimlərin nüfuzunun və rolunun möhkəmlənməsinə xidmət etmək;
- İxtisas üzrə mövcud peşəkar cəmiyyətlərlə sıx əməkdaşlıq etmək;
- Əhalinin tibbi maarifləndirilməsində iştirak etmək;
- Milli sağlamlıq layihələrinin hazırlanması və həyata keçirilməsində iştirak etmək;
- Dövlət qurumları,qeyri-hökumət və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etmək

## III. **Assosasiyaya üzvlük**

- ATA-ya üzvlük fərdi və kollektivdir.
- ATA-nın Nizamnaməsini qəbul edən Azərbaycanda və xaricdə fəaliyyət göstərən hər bir həkim və təbib tələbə,tibb müəssisəsi və onun kollektivləri, ixtisas uzrə cəmiyyətlər onun üzvü ola bilər.

- Assosasiya üzv olmaq istəyən hər bir şəxs bu barədə ATA-nın prezidentinin adına ərizə ilə müraciət etməlidir və üzvlük formasını doldurub üzvlük komitəsinə təqdim etməlidir.
- Assosasiya kollektiv üzv, prezidentin təqdimatı ilə İdarə heyətinin iclasında açıq səsvermə yolu ilə, adi səs çoxluğu ilə qəbul olunur.
- Assosasiya üzvünə İdarə Heyəti tərəfindən təsdiq edilmiş və ATA prezidenti tərəfindən imzalanmış üzvlük vəsiqəsi verilir.
- Üzvlük haqqının miqdarı İdarə Heyəti qərarı ilə müəyyən olunur.

- Üzvlük kateqoriyaları:

- Adi üzvlük;
- Tələbə üzvlüyu
- Fəxri üzvlük

Fəxri üzvlər Azərbaycan və Beynəlxalq aləmdə tanınmış, təbabətin inkişafinda və əhalinin sağlamlığının qorunmasında müstəsna rolu və əməyi olan şəxslərə, həmçinin Assosasiyanın inkişafinda müstəsna rolu və əməyi olan üzvlərə İdarə Heyətinin xüsusi

Copyright 1999-2013. Azərbaycan Tibb Assosasiyası ATA Nizamnamə

Copyright 1999-2013. Azarbaycan Tibb Assosasiyasi ATA Nizamnama

qərarı ilə  fəxri üzv statusu verilir. Fəxri üzvləri İdarə Heyəti seçir və qurultay təsdiq edir. Fəxri üzv hər 1000 üzvə 1 nisbətdə seçilir.Fəxri üzvlər üzvlük haqqı ödəmirlər

 Üzvlərin hüquqları:

- Assosasiyanın Ümumi qurultayına nümayəndə seçilmək,səs vermək və rəhbər orqanlara seçilmək;
- Assosasiyanın rəhbər orqanlarına  məlumat, təklif, rəy və sorğularla müraciət etmək;
- Nəzarət Təftiş komissiyası qarşısında hər hansı bir problemlə bağlı məsələ qaldırmaq;
- Assosasiyanın təşkil etdiyi tədbirlərdə iştirak etmək

 Üzvlərin vəzifələri:

- Assosasiyanın Nizamnaməsinə, Tibbi Etik Kodeksinə və əxlaq normalarına əməl etmək;
- Assosasiyanın rəhbər orqnlarının qərarlarına tabe olmaq;
- Öz  fəaliyyəti ilə Assosasiyanın məqsəd və vəzifələrinin həyata keçirilməsində fəal iştirak və köməklik etmək;
- Öz fəaliyyəti haqqında, həmçinin verilmiş tapşırıqların yerinə yetirilməsi haqqında müntəzəm məlummat vermək;
- Assosasiyanın maddi-texniki və təşkilatı məsələlərinin həllinə yaxından köməklik göstörmək;
- Üzvlük haqqını ödəmək.

 Üzvlükdən xaric edilmə:

- Öz xahişi ilə;
- Assosasiyanın Nizamnaməsini və Tibbi Etik Kodeksi pozduqda;
- Üzvlük haqqını vaxtında ödəmədikdə;

Copyright 1999-2013 . Azərbaycan Tibb Assosasiyası 

Copyright 1999-2013. Azarbaycan Tibb Assosasiyasi ATA Nizamnama